

**QƏRİB MƏMMƏDOV,**
Dövlət Torpaq və Xəritəçəkmə
Komitəsinin sədri

## PREZİDENT HEYDƏR ƏLİYEVİN AQRAR SİYASƏTİ, ONUN ƏSAS PRİNSİPLƏRİ VƏ NƏTİCƏLƏRİ

Azərbaycan Respublikasının son on illik müstəqillik dövrü ölkəmizin dövlətçilik tarixi baxımından o qədər əhəmiyyətlidir ki, bu dövr uzun illər tarixçilərin, politoloq və sosioloqların diqqət mərkəzində olacaqdır. Qətiyyətlə demək olar ki, söylədiyimiz zaman kəsiyi, yəni Möhtərəm Prezidentimiz cənab Heydər Əliyevin ölkədaxili ictimai-siyasi sifariş və ümumxalq təkidi ilə Azərbaycanda Ali Hakimiyyətə gəlməsindən sonra başlayan yeni era siyasi baxımdan olduqca cəlbedici, maraqlı və əhəmiyyətli olduğu kimi iqtisadi baxımdan da bir o qədər diqqətəlayiq və mühümdür. Çünki bu illərdə həyata keçirilən tədbirlər bir tərəfdən ölkədə siyasi hərc-mərcliyin, anarxiyanın, vətəndaş qarşıdurmasının, sosial narazılıqların, mənəvi aşınmanın, ərazi işğalının qarşısını almaqla yanaşı, başqa bir tərəfdən dövlət institutlarının yaradılması, onların fəaliyyəti, mexanizmlərinin bərpa edilməsi, demokratik təsisatların formalaşdırılması, mədəni-humanitar dəyərlərin, mənəvi meyarların, milli özünüdərkin və milli şüurun bərpası, eyni zamanda maddi-iqtisadi vəziyyətin yaxşılaşdırılması və iqtisadi dirçəlişin təməllərinin əsasının qoyulması ilə müşahidə edilirdi. Elə buradaca qeyd etmək yerinə düşərdi ki, həmin illərdə yuxarıda söylədiklərimizdən heç də az əhəmiyyət kəsb etməyən, hətta bəlkə daha önəmli olan siyasi-psixoloji bir proses - xalqın bütün parametrlərlə mövcud potensialının vahid lider ətrafında birləşməsi prosesi də gedirdi. Əlbəttə, tarixi kontekstdə söylədiyimiz iki mühüm faktor yəni, siyasi və iqtisadi dirçəliş mahiyyət etibarı ilə sonuncu prosesdən, yəni toplumun aparıcı qüvvələrinin vahid ümummilli lider ətrafında birləşməsindən və real güclərin məhz ümummilli maraqların müdafiəsi üçün səfərbər edilməsindən asılı idi. Bu isə baş verdi. Məhz ümummilli lider üçün xas olan bütün keyfiyyətlər və kriteriyaları şəxsində cəmləşdirmiş cənab Heydər Əliyev xalqın ideal lider arzularının real təzahürünə çevrildi. Ümummilli lider ifadəsinin tam mənasında və yerində işlədildiyini diqqətə çatdırmaq üçün bircə faktı qeyd etmək kifayətdir ki, 1993-cü ildə artıq ölkədə vəziyyət elə bir kritik həddə çatmışdı ki, həm xalq, həm indi müxalifətdə olan o zamankı iqtidar, həm də hazırda iqtidarda olan o zamankı müxalifət, başqa sözlə, Azərbaycanda olan ictimai-siyasi qüvvələrin hamısı vəziyyətindən yeganə çıxış yolunu cənab Heydər Əliyevin hakimiyyət başına gəlməsində görürdü. Bu istək isə əslində ümumxalq iradəsinin ifadəsi idi. Tarixdə Atatürk, Şarl de Qoll və s.



kimi çox nadir şəxsiyyətlərə qismət olmuş ümumxalq sevgisi XX əsrin sonunda Azərbaycan siyasi coğrafiyasında cənab Heydər Əliyevə tuşlanmışdı. O isə bu sevgini və etimadı hələ 1969-cu ildən başlayaraq, Azərbaycana rəhbərlik etdiyi və SSRİ-də ən yüksək vəzifələri daşıdığı uzun dövr ərzində qətrə-qətrə qazanmışdı. Azərbaycanda isə ikinci belə şəxsiyyət və dövlət xadimi yox idi. Məhz bu amil Heydər Əliyev faktorunu alternativsiz edirdi. Hər şeyin obyektiv qiyməti obyektiv müqayisə, obyektiv təhlil əsasında ortaya çıxdığı üçün yaxın tariximizin qısa bir dövrünü söylədiyimiz aspektdən müqayisə etmək yerinə düşərdi. Əslində 1991-ci ildə başlayan rəsmi müstəqilliyimizin kökü bir qədər daha əvvəllərə söykənirdi. Belə ki, müstəqilliyimizin elan olunmasına qədərki dövrdə, yəni 1988-91-ci illərdə baş verən proseslər zamanı artıq insanların düşüncə və şüurlarında bu müstəqilliyin psixoloji və siyasi əsasları yaranmağa başlamışdı. Ancaq təəssüf ki, həmin əsasları düzgün istiqamətləndirən və ondan xalqın mənafeyi üçün səmərəli istifadə edən siyasi lider yox idi. Mövcud tarixi şəraitdə isə baş verən hadisələr o qədər mürəkkəb və əhəmiyyətli idi ki, buraxılan səhvlər sonrakı nəsillər üçün uzun illər sürəcək problemlər yaradacaq, dövlətçiliyin sütunlarını belə dağıda biləcək qədər böyük fəsadlara səbəb ola bilərdi. Təəssüf ki, belə də oldu. Nə Ə.Vəzirov, nə A.Mütəllibov, nə də AXC-Musavat cütlüyü hakimiyyəti baş verənlərin mahiyyətini dərk edə bilmədilər. Üstəlik onların düşüncə tərzi və siyasi dünya görüşləri, şəxsi keyfiyyətləri qlobal tarixi proseslərin inkişaf dinamikası ilə ziddiyyət təşkil edirdi. Belə olan halda onların lider olmaq həvəsi uğursuz bir cəhd idi. Ona görə də bunu duyan xalq müdrikliyi intuitiv olaraq, onlardan imtina edərək öz həqiqi liderinə üz tutdu.

Hakimiyyət başına gəldiyi ilk gündən Azərbaycanın həyati əhəmiyyətli məsələləri ilə məşğul olmağa başlayan H.Əliyev ölkədaxili siyasi vəziyyəti sabitləşdirməyə və qonşu Ermənitanla gedən müharibədə atəşkəs əldə etməyə nail olan kimi, ölkənin dağıdılmış iqtisadiyyatını yeni əsaslarla bərpa etmək, ölkədə bazar iqtisadi sisteminin qurulmasını təmin etmək məqsədi ilə köklü iqtisadi islahatlara başladı.

Məlum olduğu kimi, Azərbaycanda aqrar sahə iqtisadiyyatın mühüm bir hissəini təşkil edir ki, bu sahənin də inkişafının əsası məhz 1969-82-ci illərdə H.Əliyevin Azərbaycana rəhbərliyi dövründə qoyulmuşdu. Giriş hissədə qeyd etdiyimiz fikirlərin təsdiqi kimi, bəzi faktlara müraciət edək.

Hələ 1969-cu il avqust ayında Kommunist Partiyasının plenumunda cənab H.Əliyev xalq təsərrüfatının başqa sahələrində olduğu kimi, kənd təsərrüfatında da yaranmış vəziyyəti dərin təhlil etmiş, onun sürətlə inkişafını təmin edəcək kompleks tədbirləri təklif etmişdi ki, bunun da nəticəsində 1970-ci ilin iyulunda SSRİ Nazirlər Soveti Azərbaycan SSR-də kənd təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında qərar qəbul etdi. Bu qərar isə öz növbəsində respublikada kənd təssərrüfatı məhsulları istehsalının inkişafında müstəsna rol oynadı.

Bundan sonra yenə cənab Heydər Əliyevin inadlı fəaliyyəti nəticəsində SSRİ Nazirlər Kabineti Azərbaycanın kənd təsərrüfatının inkişafını təmin etmək məqsədi ilə daha iki qərar qəbul etdi.

Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında 1975-ci il 9 iyul tarixli və Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək, habelə irriqasiya-meliorasiya obyektlərinin layihələşdirilməsi və tikilməsi tədbirləri haqqında 1982-ci il tarixli qərarlar Azərbaycanda aqrar sektorun sürətlə inkişafını təmin etmiş oldu.

Göstərilən bu qərarların hər biri, ölkə iqtisadiyyatına qoyulan böyük vəsaitlər demək idi ki, belə əsaslı tədbirlərin həyata keçirilməsi nəticəsində Azərbaycanda 1969-1982-ci illərdə məhsul istehsalının artırılması, əkinçilik və heyvandarlıq məhsuldarlığının yüksəldilməsi sahəsində çox böyük nailiyyətlər qazanıldı.

O illərdə dağətəyi və dağlıq zonalarda su təsərrüfatı qurğularının tikintisi xeyli genişləndirilmiş, respublikanın əksər rayonlarında böyük həcmdə meliorasiya işləri görülmüşdü ki, bu da əkin sahələrinin strukturunun təkmilləşdirilməsinə, torpaq fondundan istifadənin səmərəliyinin yüksəldilməsinə müsbət təsir etmişdi.

Göründüyü kimi, Azərbaycanın aqrar sektoru əsası 1969-82-ci illərdə qoyulmuş möhkəm bir təmələ malik idi ki, bu təməl üzərində də aqrar islahatlar həyata keçirilməyə başlandı.

Məlum olduğu kimi, aqrar sahənin əsas orientasiyası torpaqdır. Torpaq ilk növbədə məhz iqtisadi amildir və yaxud daha dəqiq desək, bütün maddi nemətlərin yaradılması üçün əsas bazadır. İnsanın təbii ehtiyaclarının ödənilməsi yolunda fəaliyyət göstərən və torpaqla bilavasitə əlaqədar olan aqrar sektorun fəaliyyəti və inkişafı birinci növbədə torpaq amili, sonra isə ondan istifadənin vəziyyəti ilə bağlıdır. Hətta ilkin baxışda torpaq amili ilə bilavasitə əlaqəsi olmayan sənaye istehsalatı da bu və ya digər dərəcədə torpaq, onunla bağlı digər resurslarla əlaqəlidir və təsadüfi deyildi ki, cənab prezident aqrar islahatlara məhz onların mühüm tərkib hissəsi olan torpaq islahatlarından başladı.

Torpaq islahatlarının həyata keçirilməsi nə qədər vacib idisə, bir o qədər də çətin və məsuliyyətli bir iş idi. Tarixdən məlum olduğu kimi, torpaq, torpaqla bağlı münasibətlər istənilən cəmiyyətdə əsas, müəyyənedici amil olmuş, nəinki sosial-iqtisadi, hətta siyasi və beynəlxalq münasibətlərdə başlıca faktor kimi çıxış etmişdir. Torpaq demək olar ki, bütün maddi nemətlərin mənbəyi olduğu üçün siyasi rejimlərin, dövlətlərin, hətta siyasi-ictimai formasiyaların dəyişməsindən belə asılı olmayaraq, cəmiyyətdə ona olan münasibət dəyişməmişdir. Tarixə nəzər salsaq görərik ki, torpağa, maddi nemətlər istehsalına düzgün münasibət göstərə bilən, bu yönümdə düzgün siyasət apara bilən dövlətlər və siyasi rejimlər yaşamış, bu sahələri tənzimləməyi bacarmayanlar isə uzunömürlü ola bilməmişlər.

Ümumiyyətlə, belə demək mümkün isə, tarixin ən mühüm hadisə və proseslərində, dövlətlərin yaranmasında və çökməsində, hətta ictimai formasiyaların belə dəyişməsində torpağa münasibət faktoru həlledici rollardan birini oynamışdır. Bu mənada torpaq islahatlarının həyata keçirilməsi böyük məharət və cəsarət tələb edirdi. Belə ki, bu sahədə buraxılmış hər hansı bir prinsipial səhv çox



böyük fəsadlar verə bilərdi. Yalnız bir faktı göstərmək kifayətdir ki, postsovet respublikaları arasında Azərbaycan yeganə respublikadır ki, köklü və tam torpaq islahatları həyata keçirmişdir.

İslahatların həyata keçirilməsi qarşısında çox böyük çətinliklər dayanırdı. Belə ki, bu sahədə heç bir nümunənin, hüquqi bazanın olmaması, 70 ildən artıq bir dövr ərzində sovet iqtisadi rejimində yaşamış əhalinin bu radikal islahatlara qarşı psixoloji müqaviməti islahatları demək olar ki, qeyri-mümkün edirdi.

Lakin H.Əliyev qətiyyəti, ədaləti və idarəetmə metodologiyası bu işin uğurla başa çatdırılmaına səbəb oldu. Aparılan düzgün ideoloji işin bəhrəsi olaraq, psixoloji baryer dəf edildi, qısa bir müddət ərzində H.Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ümumxalq müzakirələrindən sonra torpaq islahatı proqramı hazırlandı və bu proqram əsasında torpaq islahatlarının həyata keçirilməsini təmin edən hüquqi baza yaradıldı. Torpaq islahatı haqqında Azərbaycan Respublikasının 16 iyul 1996-cı il tarixli Qanunu, Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yer quruluşu haqqında Azərbaycan Respublikasının 22 dekabr 1998-ci il tarixli Qanunu, Torpaq icarəsi haqqında Azərbaycan Respublikasının 12 mart 1999 - cu il tarixli Qanunu, Azərbaycan Respublikasının 25 iyun 1999-cu il tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Torpaq Məcəlləsi, Torpaq bazarı haqqında Azərbaycan Respublikasının 7 may 1999-cu il tarixli Qanunu da daxil olmaqla, qəbul edilmiş 40 dan çox fərman, qanun və digər hüquqi, normativ aktlar respublikamızda torpaq islahatlarını həyata keçirməyə əsaslı zəmin yaratdı. Beləliklə, hələ ölkə başçısının Naxçıvan MR-a rəhbərlik etdiyi dövrdə Culfa rayonunun Şurut və Gal kəndlərində bünövrəsini qoyduğu torpaq islahatları onun Azərbaycanın ali rəhbərliyinə gəlməsi ilə bütün ölkəyə tətbiq edilməyə başlandı. Aqrar islahatların həyata keçirilməsini təmin edən bəzi normativ-hüquqi aktların təsdiq edilməsi barədə Azərbaycan Republikası Prezidentinin 10 yanvar 1997-ci il tarixli 534 saylı Fərmanından sonra islahatların sürətlə həyata keçirilməsi prosesi başladı.

Respublikanın kənd təsərrüfatının inkişafında mühüm nailiyyətlər əldə edilməsinə səbəb olan bu islahatları digər dövlətlərdə həyata keçirilən analoji islahatlardan Möhtərəm Prezidentimiz, cənab Heydər Əliyevin müəyyənləşdirdiyi 3 mühüm prinsip fərqləndirir. Bunlar aşağıdakılardır:

Birincisi, Azərbaycanda torpaq ölkə başçımızın təşəbbüsü ilə vətəndaşlara pulsuz olaraq əvəzsiz verilir. Nəticədə 3 milyon 500 mindən çox insan torpaq mülkiyyətçisinə çevrilir. Bu isə yeni, güclü mülkiyyətçilər sinfi yaratmaqla, yeni torpaq əkinçi münasibətləri formalaşdırır, torpaqdan səmərəli və məhsuldar istifadəetməni şərtləndirir, torpağa qayğı və doğma münasibəti zəruri edir.

İkincisi, torpaqların ən yararlısı və keyfiyyətlisi özəlləşdirilir. Başqa sözlə, MDB məkanının digər ölkələrindən fərqli olaraq, vətəndaşa yararsız və ya az yararlı torpaqlar deyil, keçmiş kolxoz və sovxozların ən yararlı və münbit torpaqları verilir. Eyni zamanda Azərbaycan Respublikasının fiziki və hüquqi şəxslərinə öz mülkiyyətlərindəki torpaq sahələri üzərində müstəsna hüquqlar, al-

qı-satqı, bağışlama, icarəyə və ya istifadəyə vermə, vərəsəlik, girov qoyma və s. kimi hüquqlar verilir ki, bu da Azərbaycanda torpaq islahatlarının keçmiş SSRİ-nin digər respublikalarında olduğu kimi formal deyil, əsaslı zəmində və fundamental şəkildə həyata keçirildiyini sübut edir.

Üçüncüsü, respublikamızın ərazisində yaşayan bütün vətəndaşlara harada yaşamasından və kimliyindən asılı olmayaraq, torpaqlardan istifadə və icarə hüququ verilir, eyni zamanda Azərbaycanın hər bir vətəndaşı torpaq alqı-satqısı prosesində, torpaqla bağlı müxtəlif müqavilə və əqdlərin bağlanmasında iştirak edə bilər. Başqa sözlə, torpaq əmlakçısına çevrilmiş 3 milyon beş yüz min nəfər subyektdən başqa respublika əhalisinin yerdə qalan hissəsi də torpaq - vətəndaş münasibətlərindən kənarlaşdırılmır. Hər bir Azərbaycan vətəndaşı respublikamızda formalaşan torpaqla bağlı yeni mülkiyyət münasibətlərində birbaşa iştirakçı ola bilir.

Xüsusilə qeyd etmək lazımdır ki, məhz cənab Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda Azərbaycan vətəndaşı olmayan fiziki və hüquqi şəxslərə torpağa mülkiyyətçilik hüququ verilməmişdir ki, bu da, nəinki mühüm iqtisadi, həmçinin ciddi siyasi əhəmiyyət daşıyır.

Bu gün artıq torpaq islahatlarının birinci hissəsi, yəni kolxoz və sovxozların ləğvi, torpaqları mülkiyyət formaları üzrə bölərək onların sahiblərinə paylanması prosesi uğurla başa çatmışdır. Özəlləşdiriləcək torpaqlar demək olar ki, tam şəkildə öz sahiblərinə verilmişdir. Belə ki, respublikanın vahid torpaq fondunun torpaq islahatı zamanı müəyyən edilmiş mülkiyyət formaları üzrə bölgüsü aşağıdakı kimi olmuşdur. Respublikanın ümumi ərazisinin (8.6 milyon hektar) 56,9%-i yə'ni 4,9 milyon hektarı dövlət mülkiyyətində saxlanılmış, 23,5%-i yə'ni 2,03 milyon hektarı bələdiyyə mülkiyyətinə, 19,6%-i yə'ni 1,7 milyon hektarı isə xüsusi mülkiyyətə ayrılmışdır. 2002-ci ilin sonuna olan vəziyyətə görə torpaq payı alacaq 874 min 565 ailədən 857 min 627 ailə torpağa mülkiyyət hüququna dair Dövlət Aktları ilə təmin edilmişlər ki, bu da 3 milyon 374 min 633 subyekt deməkdir. Hazırda xüsusi mülkiyyətə verilməsi nəzərdə tutulan 1 milyon 395 min hektar sahədən 1 milyon 375 min 479 hektar sahə naturada ölçülərək öz qanuni sahiblərinə verilmişdir. Respublikamızda mövcud olmuş təsərrüfatlarda torpaqların özəlləşdirilməsi işi 98,4% yerinə yetirilmişdir. Görülən işlər Möhtərəm Prezidentimiz tərəfindən çox yüksək qiymətləndirilmişdir. O demişdir ki, biz torpaq islahatının aparılmasında radikal tədbirlərə əl atmışıq. Deməliyəm ki, nəticə idealdır. Özü də bu, hələlik başlanğıcdır .

Bu günədək respublikamızda formalaşmış yerli özünüidarə strukturları olan 2666 bələdiyyə vahidlərindən 2643-nə onlara məxsus olan torpaqlar hüdudlar daxilində naturada ölçülərək təhvil verilmişdir Qeyd etmək lazımdır ki, həyata keçirilən torpaq islahatı birdəfəlik tədbir deyil, həmişə inkişafda olan dinamik bir prosesdir. Bu proses bir-birini tamamlayan müxtəlif mərhələlərlə həyata keçirilir. Torpaq islahatının mühüm mərhələsi olan torpaqların dövlət, bələdiyyə və xüsusi mülkiyyətə verilməsi işi ilə yanaşı, ölkədə vahid torpaq fondu üzrə Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yer quruluşu işlərinin də həyata keçirilməsi xüsusi əhəmiyyətə malikdir.



Komitədə Azərbaycan Respublikasının Torpaq Məcəlləsinə uyğun olaraq torpaqlardan istifadə edilməsinin hüquqi əsasları, növləri, torpaq mülkiyyətçiləri, istifadəçiləri və kateqoriyaları üzrə bölüşdürülməsi, torpaqların kəmiyyət xarakteristikası, habelə torpaqların bonitirovkası və iqtisadi qiymətləndirilməsi haqqında lazımi məlumat və sənədlər sistemini əks etdirən dövlət torpaq kadastrı yaradılmışdır .

Dövlət torpaq kadastrı respublikada vahid sistem üzrə aparılan geodeziya, topoqrafiya və kartoqrafiya məlumatlarının əsasında torpaq, geobotanika və digər axtarış-tədqiqatların aparılması, torpaq mülkiyyətçilərinin və istifadəçilərinin qeydiyyatı, torpaqların uçotu və qiymətləndirilməsi, eroziyaya uğraması, humusun itirilməsi, şoranlaşması, habelə torpaqların münbitliyini səciyyələndirən göstəricilər kompleksindən və digər metodların kompleksindən istifadə etməklə aparılmışdır.

Vahid torpaq fondunda aparılan torpaq kadastrı və monitorinqi üzrə görülən işlərin əsas tərkib hissələrindən biri illik torpaq balansının tərtib olunmasıdır ki, son illər bu sahədə aparılan işlər torpaq islahatı nəticəsində yaranmış yeni münasibətlərə və islahatın tələblərinə uyğunlaşdırılmışdır (Dövlət torpaq kadastrının aparılması haqqında Əsasnamə ilə tənzimlənir).

Torpaq balansının tərtib olunması ilə əlaqədar Azərbaycan Respublikası Torpaq Məcəlləsinin və Torpaq islahatı haqqında Qanunun tələblərinə uyğun mülkiyyət formaları üzrə yeni forma hesabatları tərtib edilmişdir. Hazırda ölkənin vahid torpaq fondu 8641506 hektar təşkil edir. Bundan 1 yanvar 2003-ci il vəziyyətinə 1 milyon 621 min 855 hektarı əkin, 160 min 30 hektarı çoxillik əkmələr, 53 min 850 hektarı dincə qoyulmuş sahələr, 108 min 300 hektarı biçənək, 2 milyon 506 min 820 hektarı örüş, 253 min 58 hektarı həyətyanı sahə, 1 milyon 37 min 565 hektarı meşə, 147 min 793 hektarı kolluq, 4 min 681 hektarı kollektiv bağlar və 2 milyon 681 min 454 hektarı kənd təsərrüfatına yararsız sahədir.

Torpaq islahatı uzunmüddətli proses olduğu üçün, əldə olunmuş məlumatların müasir texnologiya əsasında toplanması, sistemləşdirilməsi və idarə olunması Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin gördüyü ən mühüm işlərdən biridir. Hal-hazırda keçmiş kolxoz və sovxozların özəlləşən torpaqları və bu torpaqlar üzərində mülkiyyət hüququ əldə etmiş vətəndaşlar haqqında zəngin məlumatlar da Dövlət Torpaq və Xəritəçəkmə Komitəsində saxlanılır.

Məlum olduğu kimi, torpaq islahatı torpaq üzərində mülkiyyət hüququndan başqa daimi və müvəqqəti istifadə hüququnu, torpaq alqı-satqısı, icarəsi və s. kimi prosesləri də stimullaşdırır.

Bu günə qədər torpaq sahələrinin alqı-satqısı üzrə 2819 əməliyyat, o cümlədən 2002-ci ildə 1883 əməliyyat aparılmışdır. Torpaqdan daimi istifadə hüququna dair Dövlət aktları 923, o cümlədən 2002-ci ildə 123 dövlət aktları, torpaq-

lardan müvəqqəti istifadə hüququna dair 2360 şəhadətnamə, o cümlədən 2002-ci ildə 1171 şəhadətnamə verilmişdir. Ümumiyyətlə respublika üzrə fərdi həyətyanılar və bağlara 4083 hüquqi sənəd verilmiş, bunlardan 3225 həyətyanı, 858 bağ, o cümlədən 2002-ci ildə Bakı şəhərində 3192 həyətyanı, 155 bağ sahələrinə hüquqi sənədlər verilmişdir.

Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi Dünya bankının "Təsərrüfatların özəlləşdirilməsi" layihəsində pilot təsərrüfatlar üçün hüquqi sənədlərin hazırlanmasını kadastr və qeydiyyat işlərinin aparılmasını təmin etmişdir. Hal-hazırda Dünya Bankının 2-ci layihəsi olan "Kənd təsərrüfatının inkişafı və kreditləşdirilməsi" layihəsində Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi də iştirak edir. Dövlət Torpaq və Xəritəçəkmə Komitəsində olmuş ABŞ, Kanada, Yaponiya, Fransa, İsveçrə, Finlandiya, Almaniya, Hollandiya və s. kimi ölkələrdən gəlmiş mütəxəssislər Komitənin müasir avadanlıq və informasiya texnologiyası ilə təminolunma səviyyəsini çox yüksək qiymətləndirmişlər. Respublikamızda aparılan torpaq islahatları digər MDB ölkələrinin daima marağına səbəb olmuş bu istiqamətdə Azərbaycanda torpaq islahatlarının aparılması prosesini əhatə edən hüquqi bazanın öyrənilməsinə maraq göstərilmiş və prosesin idarə edilməsi və həyata keçirilməsi mexanizmlərinə xüsusi diqqət yönəldilmişdir. Həmin məqsədlə Ukrayna, Rusiya, Belorusiya, Qazaxıstan, Dağıstan və s. kimi ölkələr Azərbaycan təcrübəsindən yararlanmaq qərarına gəlmişlər. Hazırda həmin ölkələrin müvafiq qurumları ilə Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi arasında sıx əməkdaşlıq mövcuddur. Təsadüfi deyildir ki, MDB üzvü ölkələrin Torpaq Münasibətləri və Yerquruluşu İşləri üzrə Dövlətlərarası Elmi Problemlər Şurasının sədri Rusiya Kənd Təsərrüfatı Elmləri Akademiyasının akademiki, İqtisadiyyat elmləri doktoru, professor Nikolay Komov "Yerquruluşu və Torpaq İstifadəçiliyinin Rusiya Modeli" adlı kitabında Azərbaycanda həyata keçirilən torpaq islahatları, onun hüquqi bazası, prinsipləri və icra mexanizmləri haqqında geniş məlumat verərək, bu təcrübədən faydalanmanın yararlı olacağını vurğulamışdır. Bundan başqa Qazaxıstan Respublikası Torpaq Ehtiyatlarının İdarə Edilməsi Agentliyi tərəfindən nəşr edilən "XXI Əsrin Astanasında Torpaq İslahatları Strategiyası" kitabında da Azərbaycanda həyata keçirilən torpaq islahatlarından geniş söhbət açılır, onun elmi-hüquqi əsasları haqqında geniş məlumat verilir və təqdirəlayiq bir model kimi təqdim edilir. Əlbəttə bütün bunlar xalq arasında deyildiyi kimi Heydər Əliyev torpaq islahatlarının nə qədər dərin elmi-təcrübi metodologiyaya söykəndiyini sübut edir.

Hal-hazırda torpaq islahatının daha bir mərhələsi kimi rayonlar üçün rəqəmli elektron kadastr xəritələri yaradılır. Bu məqsədlə İsveçrədən alınmış qlobal mövqe müəyyənetmə stansiyaları və elektron taxeometrlərdən istifadə etməklə, çöl işləri aparılır. Mövcud informasiyalardan istifadə etməklə, müxtəlif təyinatlı monitorinq xəritələri yaradılır.

Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin şəhər şöbələri fəaliyyətə başladıqdan sonra şəhər kadastrının yaradılması istiqamətində ciddi işlər görülür. Artıq Bakı şəhərinin bir neçə rayonu üzrə rəqəmli elektron xəritələri tərtib olunmuşdur.



Görülən işlərlə yanaşı, texnologiyanın yeniləşdirilməsi, texnoloji prosesin səmərəliliyini artırmaq üçün proqram vasitələrinin təkmilləşdirilməsi istiqamətində daim iş aparılır.

Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi öz fəaliyyətində torpaqşünaslıq və aqrokimya elmi sahəsində dünya miqyasında əldə edilmiş son nəaliyyətlərdən, müasir geoinformasiya texnologiyalarından, kompüter və digər elektroavadanlıqlardan səmərəli istifadəni geniş tətbiq edir ki, bu da öz növbəsində Azərbaycanda torpaqşünaslıq və aqrokimya elminin yeni istiqamətlərdə inkişafını stimullaşdırır, torpaq islahatı prosesində texniki xətaların minimuma endirilməsini şərtləndirir.

Hazırda Azərbaycanda ərzaq təhlükəsizliyi proqramı üzrə və Dünya Bankının xətti ilə həyata keçirilən Kənd təsərrüfatının inkişafı və kreditləşdirilməsi layihəsinin Torpaq qeydiyyatı komponentinin layihədə nəzərdə tutulan qaydada həyata keçirilməsi üçün respublikanın 10 rayonunda regional torpaq qeydiyyatı mərkəzləri yaradılmışdır.

Bu günə qədər 57 rayonun mülkiyyət formalarını ayırmaqla, rayon xəritələrinin nəşr orjinalları hazırlanmışdır ki, bunlardan da 36 rayonun xəritələri tam başa çatdırılmış, 15 rayonun isə xəritələrində son tamamlama işləri gedir.

Bundan əlavə şəhər kadastrının yaranması ilə əlaqədar Bakı şəhərinin Səbail, Yasamal, Nərimanov, Nizami, Xətai, Nəsimi, Binəqədi, Sabunçu, Qaradağ rayonlarının, Salyan və Neftçala şəhərlərinin elektron kadastr xəritələri tərtib edilmişdir.

2002-ci ildə Bakı şəhəri üzrə 151, Salyan şəhəri üzrə 32, Neftçala şəhəri üzrə isə 33 planşet tərtib edilərək, kompüterin yaddaşına yığılmışdır.

Bugünədək Dövlət Torpaq və Xəritəçəkmə Komitəsində torpaq uçotunun aparılması, torpaqdan istifadə planlarının, növbəli əkin layihələrinin, mədəni-texniki tədbirlərin, dağ yamaclarında terras layihələrinin, eroziyaya qarşı meşə zolaqlarının salınması, kənd təsərrüfatı uqodiyalarının qorunması məqsədilə müvafiq tədbirlərin görülməsi, təsərrüfatlarda baş sxemlərin hazırlanması və yerquruluşu işlərinin aparılması, torpaqların inventarizasiyası, özəlləşdirilmiş torpaqlarda könüllülük əsasında yaradılan müxtəlif təsərrüfat formaları, eləcə də hüquqi və fiziki şəxslərə torpaqlardan daimi və müvəqqəti istifadə hüququna dair sənədlərin hazırlanıb verilməsi, Meşə, Su və Ehtiyat fondu torpaqlarında kompleks yerquruluşu işlərinin aparılması, yay və qış otlaqlarında geobotaniki tədqiqatların aparılması, xəritə materiallarının digitalizasiyası, kadastr məlumatlarının qatlar üzrə kompüter yaddaşına yığılması, torpaq kadastrı üzrə məlumatların xüsusi serverdə toplanması və sistemləşdirilməsi, çöl şəraitində müxtəlif növ geodeziya, torpoqrafiya və yerquruluşu ölçmə işlərinin yüksək dəqiqliyə malik Qlobal Mövqemüəyyənetmə Sistemi (GPS) və Elektron Taxeometrlərlə aparılması, xəritə və xəritəşünaslıq materiallarının ən müasir avadanlıqlar vasitəsilə istənilən miqyas-

da çap edilməsi, dövlət aktları və şəhadətnamələrinin çap edilməsi, topogeodeziya, mühəndis-geodeziya və geniş məqsədli müxtəlif təyinatlı kartoqrafiya işlərinin yerinə yetirilməsi dövlət sərhədlərində redemarkasiya, delimitasiya və demarkasiya işlərinin görülməsi, seysmoaktiv zonalarda yüksək dəqiqliklə geodeziya ölçmə işlərinin görülməsi, dəniz şelfinin müxtəlif miqyaslarda planlanması, Dövlət Geodeziya İstinad Şəbəkəsinin yaradılması, semaktik, qrafik, topoqrafik məlumatlar Bankının yaradılması, GPS sputnik qəbuledicilərinin köməyi ilə koordinat və yüksəkliklərin təyin edilməsi, fotoqammetriya, stereotopoplanlama, aerofotoçəkiliş, müxtəlif növ və müxtəlif miqyaslı xəritə və atlasların çəkilişi, eyni zamanda respublikanın Vahid Torpaq Fondu üzərində müvafiq nəzarətin təşkili və torpaq islahatları ilə bağlı vətəndaşların müraciətlərinə baxılması və təsdiq edilmiş Əsasnaməyə uyğun olaraq, digər müvafiq işlər həyata keçirilmiş və keçirilməkdədir.

DTXK-da tematik-mövzu xəritələrin tərtibatı üzrə 6-cı sinfin coğrafi atlası, Naxçıvan Muxtar Respublikasının ümumcoğrafi, siyasi-inzibati, 1:600 000 miqyas əsasında Azərbaycan Respublikasının torpaqlarının ekoloji qiymətləndirilməsi, iqtisadi rayonlaşdırma, zoocoğrafi xəritələri tərtib edilərək, ingilis və rus dillərində 1:1 500 000 miqyaslı, Azərbaycan Respublikasının siyasi-inzibati xəritələri isə yeniləşərək rəngli nümunələri çap edilmişdir (ümumilikdə 8 adda). Torpaq-aqrokimya atlasından isə 20 ədəd xəritə tərtib edilərək rəngli nümunəsi çap edilmişdir. Xəritələrin nəşri işlərində isə mövzu xəritələri üzrə 1:1 500 000 miqyasında ingilis, rus və Azərbaycan dillərində Azərbaycan Respublikasının siyasi-inzibati xəritələri, 1:600 000 miqyaslı ölkəmizin siyasi-inzibati xəritəsi - Azərbaycan və rus dillərində, 1:600 000 miqyas əsasında Türk dünyası xəritəsi, 1:600 000 miqyas əsasında Azərbaycan Respublikasının avtomobil yolları xəritəsi (buklet) , 1:50 000 000 miqyasında Dünyanın siyasi xəritəsi, 1:2 500 000 miqyasında Qafqaz xəritəsi - ümumilikdə 11 adda xəritəsi nəşr edilmişdir.

2003-cü ildə ölkəmizin əsas atributlarından biri hesab edilən Azərbaycan Respublikasının Milli Atlasının tərtibatı, 1:1 000 000 miqyas əsasında azərbaycanlıların soyqırımı xəritəsi və həmin əsasda Azərbaycan və qonşu ölkələrin xəritəsinin hazırlanması işləri davam etdiriləcəkdir. Ölkə əhalisinin və əcnəbilərin Respublikamız və şəhərlərimiz haqqında məlumat xarakterli tələbatını ödəmək məqsədilə turist xəritə və planlarının tərtibatı ilə əlaqədar olaraq, Gənclər, İdman və Turizm Nazirliyi ilə əlaqələrin genişləndirilməsi və sifarişlərin alınması planlaşdırılır.

Bunlardan başqa, DTXK-da ən müasir geoinformasiya texnologiyası əsasında Dövlət Torpaq Kadastrının aparılmasını təmin edəcək sistemin qurulması,torpaq birjası, torpaq alqı-satqısı, torpaqların girov qoyulması və s. kimi proseslərin operativ, dəqiq və normal fəaliyyəti üçün zəruri olan informasiya bazasının yaradılması, meşə və su fondu torpaqlarının inventarlaşdırılması və onlardan istifadəyə nəzarətin gücləndirilməsi, torpaq mülkiyyətçilərinin, istifadəçilərinin, icarədarların hüquqlarının dövlət tərəfindən müdafiəsinin təmin olunmasına şərait yaradılması, maliyyə, bank, vergi, məhkəmə və digər orqanlar ilə torpaq münasibətlərinə dair operativ əməkdaşlıq üçün imkan yaradılması, torpaq ehtiyatlarının miqdarı, vəziyyətinə, azyararlı və yararsız torpaqların əkinçilik dövriyyəsinə daxil edilməsinə dair məlumat bankının yaradılması və idarə olunması, torpaqlardan istifadəyə dövlət nəzarəti, torpaq monitorinqi, yerquruluşu işləri üçün zəruri informasiya təminatının yaradılması ilə bağlı işlər də həyata keçirilir.

Respublikada həyata keçirilmiş dərin, köklü iqtisadi islahatların, habelə bu islahatların arasında öz vacibliyi və əhatəliliyi ilə xüsusi fərqlənən torpaq islahatlarının nəticələri artıq göz qabağındadır. Azərbaycan iqtisadi inkişaf mərhələsinə qədəm qoymuşdur. Belə ki, 2002-ci ildə ölkə tarixində ilk dəfə olaraq 2 milyon 200 min ton taxıl istehsal edilmişdir ki, bu da 2001-ci illə müqayisədə 180 min ton və ya 8,8% artım deməkdir. Bu artım tempi bütün kənd təsərrüfatı məhsulları istehsalında müşahidə olunmuşdur. Belə ki, 2002-ci ildə 2001-ci ilə nisbətən kartof 14,6%, tərəvəz 6,2%, meyvə və giləmeyvə 2,8%, çay 1,1%, pambıq 4,1% üzüm isə 8,3% artmışdır.

İribuynuzlu mal-qaranın sayı 2 milyon 153 min, qoyun və keçilərin sayı isə 6 milyon 849 mindən çox olmuşdur ki, bu da 2001-ci illə müqayisədə müvafiq olaraq, 2,6% və 4,4% artım deməkdir. Keçən il ət istehsalı 9,2%, süd istehsalı 4,3%, artmışdır. Kənd təsərrüfatı məhsullarının ümumi artımı 2001-ci illə müqayisədə 6,4% təşkil etmişdir ki, bu da özlüyündə kifayət qədər güclü inkişaf deməkdir.

Aparılmış islahatlar nəticəsində Azərbaycanda yeni əkinçi-torpaq münasibətləri formalaşmışdır ki, bu münasibətlərin də nəticəsi kimi 2002-ci ildə istehsal edilmiş kənd təsərrüfatı məhsullarının 99,1%-nin özəl sektorda istehsal olunmasını göstərmək olar. Faktlardan göründüyü kimi, 2002-ci ildə kənd təsərrüfatı məhsullarının istehsalı 2001-ci illə müqayisədə xeyli artmışdır ki, bu da aqrar sektorun inkişaf tempini göstərən mühüm bir göstəricidir. Eyni zamanda əhalinin pulla gəlirləri də son beş ildə 3,7 dəfə artmışdır .

Bütün bunlar bir daha sübut edir ki, Heydər Əliyevin Azərbaycan üçün müəyyənləşdirdiyi siyasi və iqtisadi kurs nə qədər düzgün və uzaqgörənliklə müəyyənləşdirilmişdir. Göründüyü kimi, Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar artıq Azərbaycan iqtisadiyyatını intensiv inkişaf yoluna çıxarmışdır ki, bu da yaxın gələcəkdə möhkəm əsaslı iqtisadiyyata malik olan qüdrətli dövlət deməkdir.